**PERSONALİA**
**Kübra Əliyeva - 80**



# PROFESSOR KÜBRA XANIM ƏLİYEVANIN ÇOXŞAXƏLİ YARADICILIĞI

**(sənətşünaslıq üzrə elmlər doktoru, professor, əməkdar incəsənət xadimi Kübra Muxtar qızı Əliyevanın 80 illik yubileyinə həsr olunur)**

**Lətafət Tahir qızı Əliyeva**
**Bakı Slavyan Universiteti Yüksək təhsil mərkəzinin**
**Elmi nəşrlər və tədbirlər üzrə rəhbəri**
**letafeteliyeva@mail.ru**
**Bakı, Azərbaycan**

Azərbaycan xalqının qədim tarixini özündə yaşadan və gələcək nəsillərə ötürən göstəricilərdən biri də xalçalardır. Xalça üzərindəki naxışların hər birinin dərin tarixi mənası, əhəmiyyəti və özəlliyi vardır. Hər bir xalqın naxış sənəti müəyyən etnik xüsusiyyətlərə malikdir və digər xalqların naxış sənəti ilə ümumi cəhətdən səsləşir.

Azərbaycanın ərazisi qədim dövrdən sivilizasiya mərkəzlərindən biri olmuş, onun mədəniyyəti, incəsənəti Manna, Midiya, Aratta, Atropatena, Qafqaz Albaniyasında istifadə edilmişdir.

Kübra Əliyeva bütün həyatı boyu xalçalar üzərində olan təsvirlərin Azərbaycanda yaşayan hansı topluma aid olduğunu və nə ifadə etməsini özünün yazdığı kitablarda sübuta yetirmişdir. Beləliklə, onun fikrinə görə, xalçalar üzərində olan bütün naxışlar – işarə, simvol və yazı xarakteri daşıyıb əsrlərlə bir-birinə ötürülərək bu günə qədər gəlib çatmışdır. Onun fikrinə görə, həndəsi formalı (üçbucaq, dördbucaq, beşbucaq, çoxbucaqlı, kvadrat və s.) elementlər yalnız qoyunçuluqla məşğul olan tərəkəmələr arasında xalçalarda əks edilməklə, söz-yazı və mətn xarakteri daşıyır.

Kübra Əliyeva bütün həyatını xalça və xalçaçılıqla bağlı elmi araşdırma və tədqiqatlara həsr etmişdir.

Sənətşünaslıq üzrə elmlər doktoru, professor, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi Kübra Əliyeva nəinki Azərbaycanda, onun sərhədlərindən kənarda da Azərbaycan xalçaçılıq sənətinin ən yaxşı mütəxəssislərindən biri kimi tanınır.

Professor Kübra Əliyeva XX əsrin əvvəllərində Azərbaycanda xüsusən də Bakıda nəşriyyat və poliqrafiya sahəsində görkəmli yer tutmuş "Elektrik" nəşriyyatının sahibləri olan Orucov qardaşlarından birinin Abuzər Orucovun nəvəsidir. O dövrün ən görkəmli sənətkarlarının əsərləri, o cümlədən Ü.Hacıbəylinin bütün əsərlərinin partituraları, M.Ə.Sabirin şeirləri, M.S.Ordubadinin romanları həmin nəşriyyatda çap edilmişdir [1, s.5].

Kübra Əliyeva Bakıda İncəsənət İnstitutunu bitirdikdən sonra Lomonosov adına Moskva Dövlət Universitetinin professoru N.V.Vasilenkonun rəhbərliyi altında ixtisaslaşma keçmiş və "Azərbaycanın xovsuz xalçaları" mövzusunda SSRİ Rəssamlıq Akademiyasının nəzdində olan Təsviri sənətin tarixi və nəzəriyyəsi Elmi-Tədqiqat İnstitutunda sənətşünaslıq üzrə fəlsəfə doktorluğu dissertasiyasını müdafiə etmişdir. 2004-cü ildə o "Təbriz xalı məktəbi XVI–XVII əsrlər

və onun Yaxın və Orta Şərqin xalçaçılıq sənəti ilə əlaqəsi" mövzusunda elmlər doktorluğu dissertasiyasını müdafiə etmişdir.

Dəyərli alimimiz Azərbaycanın tanınmış xalçaçı alimi Lətif Kərimovun tələbəsi olub. Kübra Əliyeva uzun illər ərzində Azərbaycanın bölgələrini gəzmiş və dekorativ-tətbiqi sənətin bütün növləri, o cümlədən xalça sənətinə aid zəngin faktiki materiallar toplamışdır. Kübra Əliyeva geniş erudisiyaya malik bir tədqiqatçıdır. O təkcə xalça və xalçaçılıq sahəsində apardığı tədqiqatlarla kifayətlənmir, son illərdə, Qafqaz Albaniyası incəsənəti ilə də dərindən məşğul olur.

O, hələ L.Kərimovun sağlığında Londonda, Tiflisdə və Bakıda böyük sənətkarın əsərlərindən ibarət sərgilərin əsas təşkilatçısı olaraq, onlara samballı kataloqlar hazırlamışdır [1, s.8].

Görkəmli sənətşünas alim Azərbaycanın hər bir bölgəsini, kəndini qarış-qarış gəzərək daim tədqiqat işləri ilə məşğul olmuş, çoxsaylı dərslik, kitab və məqalələr müəllifidir. Dəyərli sənətşünas uzun illər bir çox gənc rəssam və sənətkarların sərgilərini təşkil etmiş və onlara dəstək olmuşdur [3, elektron resurs].

Bundan əlavə, görkəmli sənətşünas alim pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. Uzun illər Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetində, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında Azərbaycan xalça sənəti, dizayn və dekorativ-tətbiqi sənət sahəsinə aid dərin bilik və təcrübəsini tələbələrə öyrətmişdir.

Uzun illər mühazirələr oxumuş, Şərq ornamentinin layihələndirmə və modelləşdirməsi, bədii metal, keramika, zərgərlik sənətinin texnologiyası üzrə praktiki məşğələlər aparmışdır. O, on il (1991–2001) Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Quba filialında dərs deyib. Son 20 ildə rəssamlara və memarlara dizayn, tarixi və erqonomikanın sirlərini öyrədib.

Kübra Əliyeva 50 ilə yaxındır ki, Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda çalışır.

Onun hazırladığı materiallar əsasında işıq üzü görən kitablar yaradıcılığının əsas hissəsini təşkil edir: "Azərbaycanın xovsuz xalçaları", "Azərbaycanın xalı və xalıçılıq terminləri lüğəti" (akademik R.Əfəndiyevlə birgə – Azərbaycan dilində), "Təbriz xalı məktəbi XVI–XVII əsrlər", "Lətif Kərimovun həyat və yaradıcılığı", "Ornament tarixi", "Azərbaycan xalıları" (polyak dilində), "Lətif Kərimov", "Azərbaycanın xovsuz məişət əşyaları", "Azərbaycan xalq rəssamı K.Əliyevin yaradıcılığı", "Azərbaycanın Qarabağ xalçaçılıq məktəbi", həmçinin iki dildə (Azərbaycan və rus) "XVI–XVII əsr Təbriz xalçaçılıq məktəbi", "Azərbaycanın xalq rəssamı L.Kərimovun həyat və yaradıcılığı" əsərlərində Azərbaycan sənətşünaslıq elminə çox dəyərli töhfədir.

Professor K.Əliyevanın çoxsaylı məqalələri İngiltərə, Fransa, Avstriya, İsrail, Polşa, Almaniya, Türkiyə, İran, Amerika, İspaniya, Gürcüstan, Rusiya, Türkmənistan respublikalarında keçirilən elmi konfrans və simpoziumlarda dinlənilmiş və çap edilmişdir. K.Əliyeva tarix, mifologiya, folklor, din, etnoqrafiya, arxeologiya və etnologiya kimi elmlərə əsaslanan 200-dən artıq elmi məqalənin müəllifidir. Onun Azərbaycanın dekorativ-tətbiqi incəsənətinə aid məqalələri Azərbaycan Sovet Ensiklopediyası və Böyük Sovet Ensiklopediyasında (xüsusi "İncəsənət" cildində) dərc olunmuşdur. O, bir çox beynəlxalq konfransların iştirakçısı olmuşdur.

Bütün bu illər ərzində Kübra Əliyeva yüzlərlə yüksək ixtisaslı kadrlar hazırlamışdır. Dizayn, sənətşünaslıq və memarlıq üzrə onlarla magistr yetişdirib, eləcə də onun rəhbərliyi altında neçə-neçə fəlsəfə doktoru dissertasiyası müdafiə edilərək, alimlik dərəcəsi alınmışdır. Onların arasında Azərbaycandan olan tədqiqatçılarla yanaşı, Misir, İran, Türkiyə, Almaniya, Ərəbistandan olan gənc alimlər də var.

Rəssamlar İttifaqının üzvü Kübra Əliyeva tez-tez gənc rəssam-modelyer və tətbiqçi rəssamların sərgilərini təşkil edib. O bu sərgilərin 50-dən artıq kataloqunu hazırlayıb və çap edib. Görkəmli sənətşünas 20 ildən artıq müddət ərzində akademik Azad Mirzəcanzadənin sədrliyi dövründə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında Musiqi, memarlıq və incəsənət üzrə ekspert olub, gəncliyindən bu günə kimi Milli Azərbaycan Tarixi Muzeyinin ekspertidir.

2014-cü ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə K.Əliyevaya "Əməkdar incəsənət xadimi" fəxri adı verilib.

Kubra xanım həm zəmanəmizin "canlı ensiklopediyası", həm də "Azərbaycan xalçasının danışan dilidir" [3, elektron resurs]. O həmçinin 2017-ci ildən Birləşmiş Millətlər Təşkilatının sülh səfiri seçilmişdir. Onun fəaliyyəti, kitabları, dərslikləri və s. haqqında daha geniş şəkildə yazmaqla bitib-tükənməz.

Azərbaycan Respublikasının Xalq rəssamı, xalçaçılıq işinin görkəmli ustadı, Şərq ornamentinin bilicisi, Azərbaycanda xalçaçılıq nəzəriyyəsinin banisi Lətif Kərimov "Gənc (bilikdə qocaman) xəlçəşünas Kübra Əliyeva" kimi fikri ilə onun xalçaşünas alim kimi fəaliyyətinin əvəzolunmaz dəyərini ifadə etmişdir (K.Əliyevanın şəxsi kolleksiyasından).

Eyni zamanda Azərbaycan tarixçisi, tarix elmləri doktoru, hal-hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutunda Albanşünaslıq Mərkəzinin arxeoloqu Qafar Cəbiyev görkəmli alimimiz haqqında "Azərbaycanda sənətşünaslıq elminin sonuncu magikanı olan professor Kübra xanım" ifadəsiylə daim öz üzərində işləyərək, hər zaman tədqiqat sahəsinə yeni-yeni töhfələrini bəxş edən Kübra xanımın yaradıcılığına ehtiram və sayğısını bildirmişdir (K.Əliyevanın şəxsi kolleksiyasından).

Görkəmli sənətşünas hal-hazırda Azərbaycan xalça sənətinə, sənətşünaslıq elminə öz töhfəsini verməkdə davam edir. Bir çox kitab və tədqiqatlar üzərində çalışan Kubra xanım "Azərbaycan dekorativ-tətbiqi sənətinin müxtəlif sahələrinə aid seçilmiş məqalələr toplusu" (2 cild), "Azərbaycan dekorativ-tətbiqi sənətinin müxtəlif sahələrinə aid seçilmiş məqalələr toplusu" (3 cild), "Qax rayonunun abidələri (2011-ci il ekspedisiyalarının materialları əsasında)" (Aytən Səlimova ilə birgə, rus dilində), "Azərbaycanın Səfəvi dövrü və Türkiyənin Osmanlı dövrünün keramika sənəti" (rus və ingilis dilində) və digər monoqrafiyalarla elmə, mədəniyyətə, incəsənətə layiqli töhfələrini verməkdə davam edir.

Beləliklə, sənətşünaslıq üzrə elmlər doktoru, professor, əməkdar incəsənət xadimi Kübra Muxtar qızı Əliyevanın həyat yolundan və yaradıcılıq axtarışlarından belə nəticəyə gəlmək olar ki, sənətşünas alimimizin elmə verdiyi töhfələr, onun yetirmələri illər keçdikcə Azərbaycan xalqına, mədəniyyətinə, incəsənətinə layiqli xidmət göstərəcəkdir.

**Ədəbiyyat**


1. Əliyeva, K.M. Azərbaycan dekorativ-tətbiqi sənətinin müxtəlif sahələrinə aid seçilmiş məqalələr toplusu (Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunur). – Cild 1. – Bakı, – 2019, – 550 səh.
2. Əliyeva, K.M. Ornament tarixi (I hissə). – Bakı, – 2012. – 184 səh.
3. Əliyeva, L.T. Naxışa dönən ömür [Elektron resurs] // https://olke.az/kse/338494/naxisa-dnen-mur/
4. Xatun Azəri-Türk Qadınlar Birliyinin dərgisi. – Bakı, – 1998. № 2, – səh.15-16.